# Əməkdaşlığa dair saziş imzalanıb

Dağıstan Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlıdır. Bu fikir Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovun ölkəmizə səfəri çərçivəsində mayın 12-də Bakıda keçirilən Azərbaycan-Rusiya işgüzar görüşündə səsləndirilib.

Tədbirdə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, Azərbaycan tərəfindən maşınqayırma, kimya, qida sənayesi, tikinti sahələrində fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak edib.

İşgüzar forumda çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan-Rusiya əlaqələrinin inkişaf etdiyini, ölkələrimiz arasında əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb. Bildirib ki, Azərbaycan və Rusiya prezidentləri ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafına böyük əhəmiyyət verir və dövlət başçılarının, rəsmi nümayəndə heyətlərinin və iş adamlarının qarşılıqlı səfərləri bunun bariz göstəricisidir.

Nazir qeyd edib ki, Azərbaycan Rusiyanın federal subyektləri, o cümlədən Dağıstan Respublikası ilə uğurla əməkdaşlıq edir, qonşu Dağıstanla Azərbaycanı ümumi tarixi və mədəni köklər birləşdirir. Nazir Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovun iştirakı ilə Bakıda keçirilən Dağıstan mədəniyyət günlərinin Azərbaycan və Dağıstan arasında mədəni, eləcə də ticarət-iqtisadi əlaqələrin inkişafı baxımından yeni mərhələnin başlanğıcı olacağını vurğulayıb. Bildirilib ki, bu il mayın 11-də Mahaçqalada Azərbaycanın görkəmli dövlət xadimi Əziz Əliyevin abidəsinin açılması xalqlarımız arasındakı dostluq və qardaşlıq münasibətlərinin daha bir nümunəsidir.

Azərbaycan və Dağıstan rəsmilərinin qarşılıqlı səfərləri, aparılan danışıqlar və keçirilən tədbirlər iqtisadi əlaqələrin genişləndirilməsinə olan qarşılıqlı marağın göstəricisidir. Dağıstan nümayəndə heyəti ənənəvi olaraq keçirilən Azərbaycan-Rusiya Regionlararası Forumunda fəal iştirak edir, Azərbaycan şirkətləri Dağıstanda uğurla fəaliyyət göstərir. Dağıstan Respublikası ilə ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlığa dair sazişlər imzalanıb. Azərbaycan Dağıstanın ənənəvi ticarət tərəfdaşı, o cümlədən Dağıstandan ixrac olunan ərzaq məhsullarının əsas istehlakçısıdır. Bu il ötən ilin müvafiq dövrü ilə müqayisədə ticarət dövriyyəsinin həcmində artım müşahidə edilir. Bugünkü işgüzar görüşdə iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən iş adamlarının iştirakı Azərbaycan və Dağıstan arasında əlaqələrin genişləndirilməsinə verilən önəmin daha bir göstəricisidir. Xalqlarımız arasındakı dostluq münasibətləri, böyük iqtisadi potensial və qarşılıqlı maraq faydalı əməkdaşlığın gələcəkdə də uğurla davam etdirilməsi üçün möhkəm zəmin yaradır.

Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipov çıxışında müasir Azərbaycanın inkişafında ümummilli lider Heydər Əliyevin xidmətlərini xüsusilə vurğulayıb, Azərbaycanın görkəmli dövlət xadimi Əziz Əliyevin Dağıstan Respublikasının inkişafında fəaliyyətini yüksək qiymətləndirərək ötən gün Mahaçqalada abidəsinin açıldığını qeyd edib. Ramazan Abdulatipov deyib ki, Azərbaycanın hazırkı inkişafında, xüsusilə iqtisadiyyatın şaxələnməsində və yeni keyfiyyət mərhələsinə qədəm qoymasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti mühüm önəm kəsb edir. Dağıstanın Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu qeyd edən Ramazan Abdulatipov mövcud potensialdan səmərəli istifadənin ticarət-iqtisadi əlaqələrin inkişafında əhəmiyyətli olacağını, tikinti, xidmət, turizm, birgə müəssisələrin yaradılması və s. sahələrdə əməkdaşlıq imkanlarını diqqətə çatdırıb, Azərbaycan sahibkarlarını Dağıstana investisiya yatırmağa dəvət edib.

Sonra Rusiya Federasiyasının Dağıstan Respublikasının Sahibkarlıq və İnvestisiya Agentliyinin rəhbəri Bəşir Maqamedov Dağıstanın investisiya potensialına, turizm və xalq bədii sənətkarlıq naziri Maqamed İsayev turizm imkanlarına dair təqdimatlarla çıxış ediblər.

İşgüzar görüş çərçivəsində Azərbaycanın "Caspian" İnvestisiya Qrupu ilə Dağıstan Respublikasının Sahibkarlıq və İnvestisiya Agentliyi arasında əməkdaşlığa dair saziş imzalanıb.

Tədbirdə Rusiya Federasiyasının Dağıstan Respublikası barədə film nümayiş olunub və qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

***AZƏRTAC***